# Azərbaycanın ən böyük gənclər festivalı "Yay Fest" uğurla yekunlaşıb



**Azərbaycanın ən böyük gənclər festivalı "Yay Fest" uğurla yekunlaşıb. Azərbaycan Respublikasının Gənclər Fondunun Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, ümumilikdə 2 mindən çox gəncin iştirak etdiyi əyləncəli, öyrədici və dinamik atmosferdə keçirilən festival müxtəlif tematik mövzulara uyğun səkkiz ardıcıl düşərgədən ibarət olub.**

Çadır tipli düşərgə formatında olan festival Azərbaycan Respublikasının Gənclər Fondunun dəstəyi, "IDEA" İctimai Birliyi, COP29 sədrliyi, Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı, Azərbaycan Könüllü Təşkilatları İttifaqı, "CAVAN" Gənclər Hərəkatı İctimai Birliyi və "Gənc Könüllülər" İctimai Birliyinin birgə təşkilatçılığı ilə Şamaxıda keçirilib.

Prezident İlham Əliyevin sərəncamına əsasən, Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan olunmasının və COP29 kimi mötəbər tədbirə ölkəmizin evsahibliyi etməsinin vacibliyini nəzərə alaraq, builki düşərgədə seçilən mövzular ekologiya, ətraf mühitin mühafizəsi və COP29-a həsr olunub.

"Birlikdə daha yaşıl gələcəyə!" devizi ilə keçirilən "Yay Fest"in başlıca məqsədi dövlət gənclər siyasətinə uyğun olaraq gənclər üçün müxtəlif sahələrdə yaradılan geniş imkanların təşviqinə, gənclərin inkişafı və onların asudə vaxtlarının səmərəli və əyləncəli keçirilməsinə, o cümlədən müxtəlif bölgələrdən olan gənclərin şəbəkələşməsinə və sosiallaşmasına dəstək vermək olub.

İyulun 15-dən başlayan "Yay Fest"in hər düşərgəsi gənclər üçün unudulmaz, əyləncəli, yaddaqalan və öyrədici olub. Təbiət qoynunda təşkil olunan ekoloji oyunlar, komanda işləri, haykinq və əyləncəli fəaliyyətlər gənclərə həm maraqlı, həm də öyrədici təcrübə yaşadıb. Həmçinin düşərgə iştirakçıları müxtəlif bölgələrdən olan yaşıdları ilə tanış olub, yeni dostluqlar quraraq şəbəkələşmənin və sosiallaşmanın vacibliyini bir daha anlayıblar. Gənclər üçün hazırlanan maraqlı və dinamik proqram onların həm asudə vaxtını səmərəli keçirməsinə, həm də şəxsi və peşəkar inkişafına töhfə verib.

Düşərgə çərçivəsində "IDEA" İctimai Birliyi tərəfindən keçirilən təlimlər və interaktiv fəaliyyətlər gənclərin ekoloji maariflənməsini artırmaqla yanaşı, onların ekoloji məsələlərə məsuliyyətli yanaşmasını təşviq edib.

Azərbaycan.- 2024.- 10 sentyabr (№196).- S.4.